**Bakı Şəhər Statistika İdarəsinin**
**2023-cü il 13 yanvar tarixli 01/t nömrəli**
**əmri ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Bakı Şəhər Statistika İdarəsinin 2023-cü il üçün Keyfiyyət sahəsində məqsədləri

Statistika sistemində Keyfiyyətin idarə edilməsi sisteminin (KİS) qurulması, statistik istehsal proseslərinin idarə olunmasının səmərəliliyinin artırılması və idarəetmənin asanlaşdırılması məqsədilə Bakı Şəhər Statistika İdarəsinin (bundan sonra – Bakı ŞSİ) 2023-cü il üçün keyfiyyət sahəsində əsas məqsədləri aşağıdakılardır:

- "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı", digər proqramlar və strategiyalarda icrası 2023-cü ildə nəzərdə tutulan tədbirlərlə bağlı hazırlanmış iş planlarına əsasən yerli statistika orqanları üçün müəyyən edilmiş tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;
- “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2023-cü il üzrə Tədbirlər Planından yerli statistika orqanları üçün irəli gələn tapşırıqların vaxtında və keyfiyyətlə icrası;
- Çoxgöstəricili Klaster Sorğusunun (MICS) təşkili istiqamətində zəruri işlərin keyfiyyətlə yerinə yetirilməsinin təmin olunması;
- Bakı ŞSİ-də keyfiyyətin idarə edilməsi sisteminin işlək vəziyyətdə saxlanılması və idarə daxilində hazırlanan sənədlərin “Keyfiyyəti idarəetmə sistemləri. Tələblər” ISO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğunluğunun təmin edilməsi üçün müvafiq tədbirlərin görülməsi;
- Keyfiyyətə nəzarət mexanizmləri vasitəsi ilə ilkin və yekun məlumatlarda yol verilən xətaların minimuma endirilməsi, məlumatların keyfiyyətinin daha da yüksəldilməsi;
- İstifadəçi tələbatı nəzərə alınmaqla yeni statistik məhsulların istehsalı məqsədilə statistik müayinələrin təşkili istiqamətində zəruri işlərin keyfiyyətlə yerinə yetirilməsinin təmin olunması;
- “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-2023-cü illər üzrə Kommunikasiya Strategiyası”ndan 2023-cü il üzrə yerli statistika orqanları üçün irəli gələn vəzifələrə dair tədbirlərin vaxtında və keyfiyyətlə icrası;
- Böhran vəziyyətləri zamanı Dövlət Statistika Komitəsinin böhran vəziyyətlərinə qarşı kommunikasiya qrupunun zəruri göstərişləri əsasında kommunikasiya fəaliyyətinin həyata keçirilməsi;
- Sorğular vasitəsilə istifadəçi tələbatının öyrənilməsi və istifadəçilərin məmnunluğunun maksimum təmin edilməsi məqsədilə bu istiqamətdə müvafiq işlərin həyata keçirilməsi;
- Bakı ŞSİ-də yerli və regional kütləvi informasiya vasitələri ilə əlaqələrin daha da genişləndirilməsi, eləcə də sosial media vasitəsilə kommunikasiya fəaliyyətinin təkmilləşdirilməsi;
- Yerli statistika orqanlarının fəaliyyətinin təhlili üçün zəruri sorğu məlumatlarının Komitəyə təqdim edilməsi;
- Bakı ŞSİ-nin potensialının gücləndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi;
- İnformasiya təhlükəsizliyi sisteminin işlək vəziyyətdə saxlanılması və “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə Təlimat”a uyğun olaraq bu istiqamətdə diqqətin artırılması üçün müvafiq tədbirlərin görülməsi;
- Bakı ŞSİ-nin İKT avadanlığının davamlı olaraq yenilənməsi.